**Nadir İSMAYILOV**
*dosent, "Biblioqrafiyaşünaslıq" kafedrasının müdiri*

**Xəyalə XƏLİLOVA**
*ADA Universiteti Kitabxanasının əməkdaşı*

# AZƏRBAYCANDA KİTABXANA İSİNİN İNKİSAFINDA YENİ MƏRHƏLƏ
## *(ADA UNİVESİTETİNİN KİTABXANASININ KECİRDİYİ BEYNƏLXALQ KONFRANSIN İCMALI)*

***Açar sözlər:*** *Azərbaycan Respublikası, informasiya, kitabxana, ADA Universiteti, konfrans, təlim, kataloq, mövzu, sahə, proses, cəmiyyət*

***Ключевые слова:*** *Азербайджанская Республика, из информации, библиотека, Университет ADA, конференции, обучение, каталог, название, область, процесс, сообщество*

***Key words:*** *the Republic of Azerbaijan, of information, the library, the University of ADA, conferences, training, directory, title, area, process, community*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra cəmiyyətin həyatında köklü dəyişikliklərin baş verməsi, informasiya cəmiyyətinə keçid, kitabxana-informasiya infrastrukturunun yeni mühitə transformasiyası prosesləri dərinləşdi. Cəmiyyətin informasiya təminatının təşkili, onun perspektivlərinin müəyyən edilməsi hər şeydən əvvəl keçilmiş yola nəzər salınmasını tələb edir. Bu baxımdan ADA Universiteti Kitabxanasının aprel ayının 1-i və 2-i tarixlərində "Kitabxana informasiya sahəsində əldə edilmiş nəzəri və təcrübi nailiyyətlərin tətbiqi" mövzusunda təşkil etdiyi I Beynəlxalq Konfrans böyük elmi-praktik əhəmiyyət kəsb edir.

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin də dəstəyi ilə keçirilən tədbir ADA Universiteti rəhbərliyi, eyni zamanda kitabxana heyətinin səyi və gərgin əməyi nəticəsində baş tutdu və iki gün davam etdi.

Konfransda ADA Universitetinin rektoru Hafiz Paşayev, Mədəniyyət və Turizm Naziri Əbülfəz Qarayev, kitabxana sahəsində fəaliyyət göstərən mütəxəssislər və xarici qonaqlar iştirak ediblər. Ümumilikdə Konfransda

200-ə yaxın qonaq iştirak edib ki, onlardan 20 nəfərdən çoxu müxtəlif xarici ölkələrdən dəvət almış kitabxana sahəsinin qabaqcıl mütəxəssisləri idi. Digər qonaqlar isə Azərbaycanın müxtəlif universitet, institut və digər təhsil müəssisələrinin kitabxana işçilərindən, rayon və şəhər mərkəzləşmiş kitabxana sistemlərinin kitabxanaçılarından ibarət idi.

Konfransı açıq elan edən ADA Universitetin rektoru Hafiz Paşayev kitabxananın universitet həyatında önəmindən bəhs edərək hətta universitet binası zamanı kitabxananın mərkəzi nöqtə olaraq seçildiyini də konfrans iştirakçılarının nəzərinə çatdırdı. Hafiz Paşayev hər bir təhsil ocağının inkişafı üçün kitabxananın mövcudluğunu xüsusi olaraq vurğulayaraq kitabxana işinə diqqətin artırılmasını və bu sahədə ciddi addımların atılmasının zəruriliyini konfrans iştirakçılarına bildirdi.

Daha sonra çıxış edən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Naziri Əbülfəz Qarayev son dövrlərdə ölkəmizdə kitabxana-informasiya sahəsində əldə edilmiş nailiyyətlərdən bəhs etdi.

Onu da qeyd etmək lazımdır ki, ADA Universiteti Kitabxanasının təşkil etdiyi bu konfrans Azərbaycan Kitabxana işi tarixinə ilk beynəlxalq konfrans olaraq düşdü. Konfransın təşkili ölkənin bütün kitabxanalarından dəvət edilmiş kitabxanaçılara xarici kitabxana mütəxəssislərin təcrübələri haqqında informasiya qazanmağa, onlarla təcrübə mübadiləsi etməyə imkan yaratdı. Konfransın gələcəkdə Azərbaycan kitabxanaları ilə xarici kitabxanalar arasında yeni əməkdaşlıqların yaradılmasına bir cığır açdığını da desək yanılmarıq.

İki gün davam edən konfransda maraqlı və kitabxana işi sahəsində önəmli məsələlərə toxunulan çıxışlar dinlənildi.

ADA Universitetinin Tədris işləri üzrə prorektoru Cənab Patrick Quinn isə öz çıxışında qeyd edib ki, müasir dövrdə kitabxanaların əhəmiyyəti getdikcə artır və kitabxanaların mövcudluğu ilə yanaşı onların inkişafı insanların intellektual səviyyəsinin yüksəldilməsi üçün olduqca vacibdir. Onun sözləri ilə desək kitabxana olmadan hər hansı bir inkişafdan, tərəqqidən söhbət açmaq qeyri-mümkündür. "Müasir kitabxanalarda informasiya xidmətləri" mövzusunda çıxış edən Patrick Quinn ilk sessiyanı açaraq sözü konfransda çıxış edəcək qonaqlara verdi. Konfransın ilk sessiyasında "Aparıcı təcrübə və xidmət keyfiyyətinin meyarları" mövzusu ilə Aberystwyth Universiteti, Kitabxana İnformasiya Xidmətlərinin direktor müavini - Julie Hart, "Qərb kitabxanaçılıq təcrübəsi: İstifadəçilərlə əlaqələrin qurulması üsulları və səbəbləri" mövzusu ilə Nazarbayev Universiteti Kitabxanasının



Baş Meneceri Jim Agee, "Gürcüstanda kitabxanaların inkişaf tendensiyası: Əldə olunmuş təcrübə əsasında" mövzusunda isə Tbilisi Dövlət Universiteti, Milli Elmi Kitabxananın Direktoru İrakli Qaribaşvili çıxış edərək konfrans iştirakçılarını müvafiq mövzularla əlaqədar məlumatlandırdılar.

İlk qısa fasilədən sonra "Kitabxanalarda tədris və tədqiqat qlobal elmi-tədqiqat cəmiyyətinin bir hissəsi kimi" mövzusuna həsr edilmiş II sessiyanın moderatoru olan ADA Universiteti kitabxanasının direktoru Marta Speirs iştirakçıları salamlayaraq konfransın məqsədindən və əhəmiyyətindən bəhs edib, sözü çıxış edəcək qonaqlara verdi. Bu sessiyada "KİV informasiya mədəniyyəti: yeni imperativ" mövzusunda Bütün Proqramlar üçün İnformasiya (IFAP)-ın sədri, Sədr Yevgeni Kuzmin, "İnformasiya mədəniyyəti proqramının ADA Universitetinin təhsil prosesinə tətbiqində kitabxananın rolu" mövzusunda ADA Universiteti Kitabxanasının Məlumat və İnformasiya bilgisi üzrə kitabxanaçısı Müşviq İmamverdiyev və "Azərbaycanın elmə əsaslanan iqtisadiyyatının qlobal elmi-tədqiqat cəmiyyəti vasitəsilə təkmilləşdirilməsi" mövzusunda Thomson Reuters İP və Elm, Strateji Biznes Meneceri Philip Purnell çıxış edərək konfras iştirakçılarını məlumatlandıraraq onların suallarını cavablandırdılar. ADA Universiteti Kitabxanasının kitabxanaçısı Müşviq İmamverdiyevin çıxışı maraq doğuran çıxışlardan oldu. O öz çıxışında İnformasiya mədəniyyəti proqramının ADA Universitetində tətbiqindən, universitetin müəllim və tələbə kontingenti ilə əməkdaşlıqdan, informasiya mədəniyyətinin tədrisinin vacibliyindən söhbət açdı.

Günün son sessiyasında "Onlayn informasiyaya ümumçıxış" mövzusunda danışan moderator Elçin Məmmədov sözü ADA Universiteti Fiziki Qüsurlu Şəxslərlə İş Şöbəsinin əməkdaşı Elnur Eyvazova verdi. Fiziki qüsurlu istifadəçilərə informasiya xidmətinin təşkili barəsində çıxış edən Elnur Eyvazov ona ünvanlanmış sualları cavablandırdı. Onun çıxışı zamanı kitabxana işinin ciddi problemlərindən biri işıqlandırıldı. Belə ki, Elnur Eyvazovun auditoriyaya müraciəti zamanı bəlli oldu ki, Azərbaycan kitabxanaçılarına əlil və qüsurlu oxuculara xidmətlə bağlı heç bir treninq keçirilmir. Halbuki, bu məsələyə xüsusi diqqət yetirilməlidir. Əlil və fiziki qüsurlu şəxsləri cəmiyyətə qazandırmaq, onların mütaliəsinə rəhbərlik etmək müasir vəziyyətdə kitabxanaçıların qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu səbəbdən də mövcud problemin aradan qaldırılması prioritet məsələlərdən biridir.

Növbəti çıxışda AZLİBNET – Azərbaycan kitabxanalarının ilk toplu kataloqundan bəhs edən Azərbaycan Dövlət Gənclər Kitabxanasının direk-

toru Tahir Sadıqov və həmin kitabxananın kitabxanaçıları Solmaz Osmanova və Günay Həsənova konfrans iştirakçılarını öz kitabxanalarının gördüyü iş haqqında məlumatlandırdılar. Konfransın ilk günündə OCLC-nin nümayəndəsi olan Barış Tan Qlobal toplu kataloq haqqında məruzə etdi.

Aprel ayının 2-də öz işini davam etdirən konfrans prorektor Patrick Quinnin moderatorluğu ilə başladı və Mississippi Universitetinin əməkdaşı Gregory Heyworthun "Mətnşünaslıq elmi və keçmişdən xəbər verən gələcək" mövzusunda, Bakı Ali Neft Məktəbi kitabxanasının rəhbəri Tatyana Zaysevanın "Azərbaycanda repozitar fond xidmətləri: faktiki hesabat" mövzusunda, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Kitabxana Şöbəsinin müdiri Lətifə Məmmədovanın "Azərbaycan ədəbiyyatının virtual kitabxanası: ədəbiyyat incilərimizin dünyaya çatdırılması" mövzusunda olan çıxışları ilə davam etdi.

Konfransın son sessiyası da maraqlı çıxışlarla yadda qaldı. Aberystwyth Universiteti Kitabxana İnformasiya Xidmətlərinin direktor müavini Julie Hart, "Yeni onlayn akreditə olunmuş informasiya liderlik proqramı üzrə Emerald, ASLIB və Aberystwyth Universitetinin birgə əməkdaşlığı", ProQuest-in nümayəndəsi Abdullah Al-Sayyadın "Summon – şəbəkə miqyasında araşdırma: daxili və xarici resursların vahid interfeysdən axtarışının həyata keçirilməsi və istifadəsinin asanlaşdırılması", Mehmet Hasekinin "Texnologiya elm sahəsi üzrə bili-k mənbələri; IEEE rəqəmsal kitabxanasının təqdimatı", Elsevier B.V.nin Satış Meneceri Ayhan Saracoğlunun, "Tədqiqat məkanında qlobal istiqamətlər" və ADA Universiteti Biznes fakültəsi nümayəndələri, Anke Piepenbrink və Elkin Nurməmmədovun "Keçid iqtisadiyyatı və formalaşmaqda olan bazar iqtisadiyyatı" üzrə mövzuları haqqında olan çıxışları konfrans iştirakçılarının ürəyincə oldu. Hər bir çıxışdan sonra iştirakçılar suallarını çıxış edənlərə ünvanlayaraq onları maraqlandıran suallara ətraflı cavablar aldılar.

ADA Universiteti kitabxanasının maraqlı təşəbbüslərindən biri çıxışlardan sonra kitabxanada təlimlərin təşkil edilməsi oldu. Hər bir kitabxana işçisi öz şöbəsinin işini konfrans iştirakçılarına həm əyani göstərməklə, həm də video təqdimatların köməyi ilə izah edərək sualları cavablandırdı. Beləliklə, konfrans iştirakçıları kitabxananın işi ilə, həmçinin yeni texnologiya, kitabişləmə qaydaları ilə tanış olmaq imkanı əldə etdi. Konfrans təşkilatçıları qonaqların konfrans haqqında olan fikirlərini öyrənmək məqsədi ilə onlar arasında yazılı sorğu da keçirdi. Sonda ADA Universiteti Kitabxanasının



direktoru Martha Speirs qonaqlara gəldikləri üçün öz minnətdarlığını bildirdi və konfrans öz işini yekunlaşdırdı.

ADA Universitetinin təşkil etmiş olduğu bu konfrans xarici kitabxanalarla müqayisədə Azərbaycan kitabxanalarının bir çox qüsurlarını meydana çıxardı ki, bu da ölkə kitabxana işinin inkişafında atılacaq addımların ciddiliyini və bu sahədə görüləcək işlərin tezləşdirilməsi zəruriliyini bir daha ortaya qoydu. Bu cür tədbirlərin mütəmadi keçirilməsini ölkənin, ümumilikdə kitabxana işinin inkişafına təkan kimi qiymətləndirsək yanılmarıq. Amma bunu xüsusilə qeyd etmək lazımdır ki, bu kimi tədbirlərin təşkili ilə iş bitmir. Əldə edilən biliklərin, iş təcrübəsinin təbliğini tezləşdirmək və kitabxanalarımızın vəziyyətini yaxşılaşdırmaq lazımdır.

Konfrans Azərbaycan kitabxanaçılarına xarici kitabxanaların təcrübələri ilə yaxından tanış olmaq, onlarla fikir mübadiləsi aparmaq, eyni zamanda ölkə kitabxanalarında olan çatışmazlıqları daha da aşkarlamağa və gələcəkdə bu sahədə ciddi addımlar atmağa imkan verdi. Konfransın ölkə kitabxanalarının hərtərəfli inkişafındakı rolunu nəzərə alaraq gələcəkdə ADA Universiteti Kitabxanası bu kimi tədbirlərin mütəmadi olaraq keçirilməsini nəzərdə tutur.

**Н. Исмайлов,**
**Х. Халилова**

## НОВЫЙ ЭТАП В РАЗВИТИИ БИБЛИОТЕЧНОГО ДЕЛА В АЗЕРБАЙДЖАНЕ (ИТОГИ МЕЖДУНАРОДНОЙ КОНФЕРЕНЦИИ,ПРОВОДИМОЙ БИБЛИОТЕКОЙ УНИВЕРСИТЕТА АДА)

### РЕЗЮМЕ

Конференция,организованная Библиотекой Университета АДА, вошла в историю Библиотечного дела в Азербайджане как первая международная конференция. Проведение этой конференции дало возможность библиотекарям, приглашенным со всех библиотек страны, ознакомиться опытом специалистов, приглашенных из-за рубежа, а также создало условия для обмена опытом между участниками. Нужно отметить, что данная конференция сыграет большую роль в сотрудни-

честве между Азербайджанскими и зарубежными библиотеками в будущем. На конференции, которая длилась два дня, были выслушены интересные и важные вопросы в сфере библиотечного дела.

**N.Ismayilov**
**Kh.Khalilova**

## A NEW PHASE IN LIBRARY WORK DEVELOPMENT IN AZERBAIJAN (REVİEW OF INTERNATIONAL CONFERENCE HELD BY THE LIBRARY OF ADA UNIVERSITY)

**SUMMARY**

The conference organized by the Library of ADA University entered the history of library work of Azerbaijan as an international conference. The conference introduced an opportunity to librarians invited from all the libraries across the country to gain knowledge about experiences of foreign library experts and ensure an experience exchange with them. It wouldn't be wrong to claim that it made a path in setting up new cooperation between Azerbaijani and the foreign libraries.

The important speeches that touched upon the necessary issues in the filed were delivered during the two days long conference.